# ONU HAMIMIZ – BÜTÜN ŞİRVANLILAR QORUMALIYIQ

...Seyfəddin müəllim cəfakeş ziyalılarımızdandır. Belə demək mümkünsə, o, ulu Şirvanımızın dərvişidir. Şirvanı kənd-kənd, oba-oba, el-el gəzən Seyfəddin müəllim unudulmuş klassik aşıq, şairlərimizi 90-cı ildən sonra bizə ilk dəfə geniş şəkildə təqdim etdi. Yaddan çıxmış adət-ənənələrimizi, mövsüm, mərasim, əmək nəğmələrini, bayatı, nağıl, dastanlarımızı toplayır, nəşr etdirir, xalqın malı edir... Məni bir sənətkar kimi ən çox sevindirən Seyfəddin müəllimin Şirvan aşıq sənəti ilə bağlı apardığı tədqiqatlar və nəşr etdiyi kitablardır. O, sorağı XVII əsrdən günümüzə qədər gələn 400 nəfərdən artıq Şirvan aşıqlarının həyatını min bir əzabla öyrənmiş, onlar haqqında xatirələr, əsərlərindən nümunələr toplamış, kitablar yazmışdır. O, Şirvanın Aşıq Mirzə Bilal, Aşıq Abbas, Aşıq Şakir, Aşıq Xanmusa, Aşıq Barat, Aşıq Şərbət, Aşıq Xanış kimi ustadlarına, sözün həqiqi mənasında yeni həyat bəxş etmişdir. Bax elə tək bu işinə görə Seyfəddin müəllimə minnətdar olmalıyıq. Onu hamımız sevməli – bütün, şirvanlılar qorumalıyıq...



***Alim QASIMOV,***
***Xalq artisti***

kredo. 2019. 11 yanvar. S.11